

Mustafa Çəmənli

# NƏŞRİYYATLARDA KEÇƏN ÖMRÜM

**(Xatirələr)**

(əvvəli ötən şənbə saylarımızda)

Adamlar Kirov prospekti boyu düzülmüşdülər. Bəlli oldu ki, Baş katib gəlib bu prospektdən keçəcək. Təbii, mən də yol kənarında dayanmış adamlara qoşuldum. Döşü daim orden-medalla dolu olan qalın qaşlı Baş katibin yolunu xeyli gözlədik. Və birdən canlanma yarandı, Baş katibin karteji orta sürətlə gəlib yanımızdan keçdi. Maşının pəncərəsindən onun hər gün şərab içən adamlara xas qızartdaq sifətini və kütləni salamlayan əlini gördüm. Baş katib keçib gedəndən sonra camaat hərəkətə gəldi və az vaxtda hərə çıxıb öz işinin dalınca getdi. Mən də işə tələsdim. O anda yadıma Vaqif Səmədoğlunun söylədiyi lətifəyə bənzər bir əhvalat düşdü. Vaqif danışırdı ki, Çar Rusiyasının zamanında general Yermolov Şamaxıya gələcəkmiş. Buna görə əhali generalın pişvazına çıxıbmış. Nəhayət, meydanın baş tərəfindən Yermolovun faytonu görünür. Generalı gətirən fayton camaatın toplaşdığı meydanı dolanaraq geri dönür. Yermolov da kimsəyə bir söz demədən camaata çəp-çəp baxıb çıxıb gedir. Şamaxılıların arasında olan şair Seyid Əzim Şirvani bu mənzərəni görüb bədahətən deyir:

**Əhli-Şirvan, neçə il yoluna göz dikdiyimiz,**
**Bilməm niyə gəldi, niyə getdi**
**Bu filan-filan etdiyimiz.**

Bu həmən general Yermolov idi ki, böyük rus şairi Puşkin "Dayan, Qafqaz, Yermolov gəlir üstünə!" yazaraq qürrələnmişdi. Puşkindən söz düşmüşkən, bizə universitetdə rus ədəbiyyatından dərs deyən unudulmaz Şamil Qurbanov o qədər sakit bir təhkiyəylə, vurğunluqla danışardı ki, biz hökmən haqqında danışılan kitabı tapıb oxumağa can atardıq. Şamil müəllim A.S.Puşkinin yaradıcılığından danışarkən onun "Ərzuruma səyahət" əsərindən də bəhs etmişdi. Puşkinin "Ərzuruma səyahəti"ni tapıb oxuyanda şairin Qarsın 20 verstliyində olan bir türk kəndində etdiyi hərəkət məndə pis təəssürat doğurmuşdu. Puşkin yazır: "Atdan sıyrılıb birinci daxmaya girmək istədim. Lakin qapıda ev sahibi görünüb deyinə-deyinə məni itələdi (bəs neyləməliydi, şair? - M.Ç.). Mən onun bu pişvazına qamçı ilə cavab verdim. Türk çığırmağa başladı, camaat yığışdı. Bələdçim gərək ki məni müdafiə edirdi. Mənə bir karvansara göstərdilər" (A.S.Puşkin. Seçilmiş əsərləri. 1 cild. "Avrasiya press", B. 2006, səh. 259).

Növbəti dərsdə Şamil müəllimə "Ərzuruma səyahət" əsərini oxuduğumu, ancaq onun ev sahibini qamçılamasını bəyənmədiyimi bildirdim. Hansı haqla belə edib, şairə yaraşarmı?

Şamil müəllim bir qədər düşünüb dedi:

- Doğrudur, amma həqiqəti olduğu kimi yazdığı üçün bağışlamaq olar.

Əlbəttə, səhvsiz insan yoxdur. Bəzən böyük bir şəxsiyyətin adi bir zarafatı ona baha başa gəlir. Mən A.S.Puşkinin ölümünə səbəb olan belə bir zarafat haqqında Telman Orucovun "Ömürdən fraqmentlər" əsərində oxudum. Müəllif yazır: "Mən sənətşünas İ.Zilberşteynin tədqiqatlarından oxudum ki, A.S.Puşkin bir ağılsız zarafatı ilə onu məhvə aparan hadisələrin bünövrəsini qoymuşdur. Belə ki, şair ballarda, ziyafətlərdə gözəl qızların xahişinə əməl edib, onların albomlarına bədahətən şeirlər yazarmış və bu kiçik parçalar onun lirik poeziyasının inciləri hesab olunur. Bir dəfə atası portuqaliyalı olan İdaliya Poletika adlı gözəl, lakin lovğa bir qız öz evlərindəki balda Puşkindən albomuna şeir yazmağı xahiş edir və şair məmnuniyyətlə razılıq verir. Albomun vərəqində gözəl bir şeir yaranır və cavan, şux qız fəxrlə bunu bütün qonaqlarına göstərir. Birdən kimsə şeiri oxuyanda bərkdən gülür və barmağını albomdakı hansısa sözə uzadanda hamı gülməyə başlayır. Onun sahibi qız barmağın işarəsinə baxanda, müəllifin imzasının altında tarixi görür, burda 1 aprel yazılmışdı. Deməli, qızın gözəlliyini vəsf edən şeir həqiqətdən uzaq imiş və şair acı istehza ilə belə tarix qoymuşdu. Açıq təhqir olunduğunu hiss edən qız qəzəbdən alışıb-yandı və şairdən qisas alacağına söz verdi. Məhz, İdaliya Poletika şairin arvadı Natalya Qonçarova ilə Dantesin arasındakı yaxın münasibətlərin təşəbbüsçüsü və vasitəçisi olmuş və bu tarixçə Puşkinin dueldə Dantes tərəfindən öldürülməsi ilə başa çatmışdı. Bu qəzəbli qadın Puşkinin ölümündən sonra uzun müddət yaşadı və Odessada şairə ilk heykəl qoyularkən bu qoca adam hamının gözü qarşısında heykələ tüpürmüşdü".

Sən bir insan nifrətinin nəhayətsizliyinə bax. Yəni bu qədər kinli olmaq olar? Dəyərmi?! İnsanın içi çürüməzmi?

Nəsə, bir qədər mətləbdən aralı düşdük. Hörmətli L.İ.Brejnev də lütfkarlıq eləyib Bakıya gəlmişdi. Gəlişiylə bizi sevindirmişdi. Amma Baş katib Respublika Sarayında çıxış edəndə işləri əməlli-başlı korladı. Mətni oxuyarkən Azərbaycanı Əfqanıstan adlandırdı. Baş katibin bütün dünyaya yayımlanan bu çıxışını tutub qəfəsə salmaq mümkün olmadı, "quş" uçmuşdu. L.İ.Brejnevin o gecədəki çıxışından xalqın yaddaşında sonradan lətifəyə çevrilmiş "Şiroko şaqayet Azerbaydjan!" kəlamı qaldı. Əlbəttə, onda günah yoxdu, səbəb qocalıqdaydı. Sistemdəydi ki, ağzı söz tutmayan, yorğun qocanı o boyda vəzifədə saxlayırdılar. Heç bir vəzifə daşımayan Qasım bəy Zakir də bu barədə yaxşı demişdir: "Yoxdu bir özgə qəmim, fikrü xəyalım qocalıq". L.İ.Brejnevin də, yəqin ki, Bakıya sonuncu oktyabr səfərində qocalıqdan özgə bir qəmi yox idi.

Xanımlardan biri böyük ədibimiz Süleyman Rəhimova salam verib halını soruşur. Yazıçı da deyir ki, necə olacağıq, qocalırıq. Xanım deyir ki, Süleyman müəllim, qocalığı boynunuza almayın.

Süleyman Rəhimov da cavabında deyir:

- Mən almıram, qocalıq özü gəlib boynuma minir.

Nəsə, L.İ.Brejnev Moskvaya qayıdandan sonra çox yaşamadı, 1982-ci il 10 noyabrda vəfat etdi. Onun dəfni televiziya ilə bütün dünyaya yayımlandı.

Fasilədən sonra işə qayıdırdım. Liftə çatmışdım ki, nəyinsə yuxarı mərtəbədən pillələn boyu tutacaqların arası ilə taqqıltı salaraq aşağı gəldiyini gördüm. Bir qədər kənara çəkilib gözlədim, elə bu vaxt ayaqlarım altına çərçivəyə alınmış böyük bir portret düşdü. Hələ qəbirdə beyin hüceyrələri tamam ölməyən L.İ.Brejnevin sulu boya ilə çəkilmiş portretini ayaq altından götürüb divara söykədim.

L.İ.Brejnev portretdən mənə baxırdı. Sanki deyirdi insanın vəfasızlığını görürsən, qardaş. Portretə baxa-baxa müdrik Qurban Pirimovun - məclislər yola vermiş tarzən Qurban dayının - tez-tez təkrar elədiyi məşhur kəlamı yadıma düşdü: - "Çalış ölmə, öldün qurtardı!" Qurban dayının sözündə haqq var, bəzi dirilər ölülərdən də əl çəkmir, elə bil qəbirdə yatan bunların geniş yerini dar edir.

O gün L.İ.Brejnevin portretini kabinetindən çıxartdırıb küçəyə atdıranlar, unutmuşdular ki, sabah onun yerinə başqa birisinin portretini başı üstə asmağa məhkumdu.

Bir həqiqət var ki, nə qədər çətin olsa da, insan gərək oturduğu vəzifə stolunu vaxtında qalxıb tərk etsin. Onda xalq yanında daha urvatlı olar.

***

Yuxarıda dediyim kimi, Seyfəddin Dağlı, Vaqif Səmədoğlu, Azər Əbilbəyli,



Qəşəm İsabəyli

Ulduzə Sadıqova klassik ədəbiyyat və folklor şöbəsini əməkdaşlarıydılar. Ulduzə Sadıqova rusdilli olduğu üçün kiçik redaktor vəzifəsini yerinə yetirirdi. Azər Ədilbəyli bədii yaradıcılıqla da məşğul idi. "Müəllifin ilk kitabı" seriyasından bir nəsr kitabı da nəşr olunmuşdu. Bizim şöbəyə korrekturadan keçmişdi. Redaktorluğa o qədər də məhəbbətli deyildi. Kinostudiyada işləmək, ssenariləri əsasında bədii filmlər çəkdirmək eşqindəydi. Mən onun arzusuna hörmətlə yanaşsam da, bədii film çəkdirmək sevdası başa gələn məsələ deyildi. Ancaq ruhdan salmaq istəmədiyimdən, ürəyimdən keçənləri ona demirdim.

Bir gün redaksiyamıza ucaboylu bir oğlan gəldi. Şair Qəşəm İsabəyli ilə həmin gün tanış olduq. Məlum oldu ki, şöbə müdirimiz Məmməd İsmayılla kinostudiyada bir yerdə işləyiblər. Arada Qəşəm Məmmədlə pıçıltı ilə danışanda mən otaqdan çıxdım ki, bəlkə sözləri var.

Bir qədər dəhlizdə gəzindikdən sonra otağa qayıtdım, Məmməd gülümsəyərək:

- Bu işi ancaq Mustafa yoluna qoya bilər, - dedi.

- O nə işdi elə?

- Qəşəm nəşriyyatda işləmək istəyir.

- Çox gözəl, - dedim, - ancaq bu işdə bir köməyim dəyə bilər. Nəşriyyatda çalışan yoldaşımızdan biri nə zamansa kinostudiyada işləmək arzusundadır.

- Kimdir?

- Məmməd müəllim, onunla danışaram, yer dəyişməyə razı olarsa, kimliyini deyərəm. Ondan sonra rəhbərliklə özünüz danışarsınız.

Razılaşdıq. Mən bu barədə fikrimi Azər Əbilbəyliyə danışdım. Kinostudiyaya getməyə dərhal razı oldu. Beləliklə, Qəşəm İsabəyli "Yazıçı" nəşriyyatına gəldi, Azər Əbilbəyli isə kinostudiyaya getdi və bəri başdan deyim ki, orada heç bir uğur əldə edə bilmədi. Qəşəm İsabəyli isə, universitetin coğrafiya fakültəsini bitirsə də, nəşriyyat sahəsində pillə-pillə irəlilədi. 1982-ci ildə, "Yazıçı" nəşriyyatında klassik ədəbiyyat və folklor şöbəsində fəaliyyətə başladığı ərəfədə onun "Gənclik" nəşriyyatında "Balaca - bapbalaca" adlı 72 səhifəlik bir kitabçası nəşr olunmuşdu. Onun mənə bağışladığı bu ilk kitabın adını daşıyan şeirindən xoşum gəlmişdi.

**Balaca - bapbalaca,**
**Balaca bir toxumdum.**
**Balaca - bapbalaca,**
**Mən torpağa toxundum.**
**Balaca - bapbalaca.**

**Gün çıxdı, yer isindi,**
**Balaca - bapbalaca.**
**Bir az da yerə sindim,**
**Balaca - bapbalaca.**
**Yerdən, günəşdən yedim,**
**Balaca - bapbalaca.**

**Bir səhər də göyərdim,**
**Balaca - bapbalaca.**
**Torpağa kök salmışdım**
**Balaca - bapbalaca.**
**Lap göyə ucalmışam,**
**Balaca - bapbalaca.**

Qəşəm İsabəylinin ilk redaktə işlərindən biri Molla Cümənin "Seçilmiş əsrləri" oldu. Kitabın tərtibçisi və ön sözün müəllifi APİ-nin professoru Paşa Əfəndiyev idi. Molla Cümənin şeirlərini 1966-cı ildə ilk dəfə toplayıb çap etdirən də Paşa Əfəndiyev olmuşdur. Doğrudan da, həyatda qəribə təsadüflər olur. Elə bil insanlar arasında gözəgörünməz tellər var. Biz bu cür işlərə çox vaxt "ürəyədamma" deyirik. Bəzən elə bil kimsə gözə görünmədən sənə pıçıldayır ki, bu yolla getmə, filan işi etmə. Əlbəttə, əksər vaxt biz bu ürəyədammalara əhəmiyyət vermirik, bildiyimiz kimi edirik. Başımıza bir iş gələndə isə, sən bir işə bax, deyirik, ürəyimə dammışdı ey, şeytan məni yolumdan azdırdı.

Molla Cümənin kitabını çapa hazırladığımız vaxtda bizim ağlımıza hardan gələ bilərdi ki, Şəkinin adi bir vətəndaşı onun əlyazmasını tapıb nəşriyyata gələcəkdir.

Dediyim kimi, Molla Cümənin şeirlərinin oxunuşu başa çatdığı bir vaxtda şöbənin qapısı açıldı, bir kişi içəri girib salam-kalamdan sonra ərəb əlifbası ilə yazılmış bir yığın əlyazmanı qoydu stolun üstünə. Məlum oldu ki, Molla Cümənin əlyazmasını Şəkidə bir din xadimindən əldə etmişdir. Bu barədə nəşriyyatın rəhbərliyini də xəbərdar etdik. Paşa Əfəndiyev də məsələdən agah oldu. Professor şəkili Şərif İdrisovun gətirdiyi əlyazma ilə tanış olduqdan sonra bu şeirlərdən də kitaba əlavələr edildi. Paşa Əfəndiyev kitaba yazdığı ön sözdə qısa da olsa, bu məsələyə toxunaraq yazır: "Şifahi dildən yazıya alınan şeirlərin, demək olar ki, əksəriyyəti bizdə olan əlyazmalarında var: özü də daha tamdır. Şərif İdrisov Molla Cümənin əlyazmasını da əldə etmişdir. Həmin əlyazmada olan bir sıra şeirləri kitaba daxil etməyi lazım bildik".

(ardı gələn şənbə sayımızda)